# YAP-ın nümayəndələri ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər




**Dekabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar Fəxri xiyabanda ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Azərbaycanın müstəqil dövlət kimi inkişafı və tarixi uğurlar qazanması ümummilli lider Heydər Əliyevin titanik fəaliyyəti, məqsədyönlü siyasəti və əbədiyaşar ideyaları ilə bağlıdır. Xalqımız qarşısında misilsiz xidmətlər göstərən ulu öndər ölkəmizin müstəqillik yolunda inkişafına nail olaraq yeni Azərbaycan reallığını yaratmışdır. Bu gün qüdrətli və qalib Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin zəngin siyasi irsi əsasında tərəqqi və Zəfər yolunda inamla irəliləyir, yeni-yeni nailiyyətlərə imza atır.

**“Xalq qəzeti”**

Xalq qəzeti.- 2022.- 13 dekabr.- S.2.